# Özümə inanmışam

**Adam var ki, onun haqqında yazmağın, sorğu-suala tutmağın asan olmadığını bilirsən. Ya vaxtının olmadığını bəhanə gətirir, ya da açıq-aşkar "baş ağrıdan" sualları cavablandırmaqdan imtina edir. Gəl ki, o da elm adamı ola. Burada heç kimi qınamaq da olmaz. Axı itirilmiş dəqiqələrin yerini doldurmağa bəzən saatlar belə bəs eləmir. Adilxan müəllimlə yaxından tanışlığım söhbətimizə heç bir bəhanə yeri qoymadı.**

Bununla belə özlüyümdə qərara gəlmişdim ki, onun vaxtını çox almayım. Ona görə də müqəddiməsiz-filansız əsl mətləbə keçdim:

**- Səməd Vurğun yaradıcılığı bir ümmandır. Bu ümmandan bir damla götürüb o qədər faydalanan olub ki! Ümman da tələtümsüz, burulğansız ötüşmür. Bəs bura baş vuranda burulğana düşəcəyinizdən ehtiyat etmədiniz ki?**

- Elmə gedən yolun çətin, həm də hamar olmadığını bilirdim. Bu yolun əzab-əziyyətli olduğu da bəllidir. Amma burulğan məcazi olsa da, yerinə düşən ifadədir. Başqalarını deyə bilmərəm, mənim xoşuma gəldi. O ki qaldı bu ümmandakı burulğandan qorxmağa, nə deyə bilərəm. İnsanda qorxu hissi çox pisdir. Hər hansı sahə olursa-olsun orada nədənsə ehtiyatlandın, kimdənsə çəkindin, gərək o işə baş qoşmayasan. Çünki bu, əl-qolunu bağlayacaq, görə biləcəyin işdən səni soyudacaq. Nəticədə heç nəyə nail olmayacaqsan. Mən başladığım işin axırına çatmayana kimi rahatlıq bilməmişəm. Nə dənizin tələtümə gəlməsindən, nə də qarşımı kəsə biləcək burulğandan qorxmuşam. Çünki özümə inanmışam.

**- Atalar deyib ki, ehtiyat igidin yaraşığıdır.**

- Baxır harada. Adamlar görmüşəm, öz kölgəsindən ehtiyatlanıb. Axı niyə? Əgər düz yoldasan, əqidən təmiz, əməlin xeyirli, gördüyün iş faydalıdırsa, nədən, yaxud kimdən çəkinməlisən. Elm axtarışdır, yaradıcılıq işidir. Burada hər kəsin öz mövqeyi, öz fikri, öz sözü olmalıdır. Təzə nəsə ortaya çıxarmağı bacarmalısan. Deyilənləri təkrarlamaq kimlərinsə yanında gözükölgəli olmaq deməkdir. Görürsən, kimi dərinə baş vurur, kimi də dayazda əl-qol atır. Öz işidir. Doğrusu, əvvəldən belə şeylərə qarışmağı xoşlamıram.

**- Özünüzü zirvədə görmək, məşhur alim kimi tanınmaq könlünüzdən keçirmi?**

- Əvvəla ta qədimdən indiyə kimi elə bir alimin adını deyin ki, elmin zirvəsinə çatmış olsun. Düzdür, tarix boyu çox görkəmli, əvəzolunmaz dahi şəxsiyyətlər olub. Onlar tarixin özü üçün zirvədir. Hətta elələri olub ki, elə götürək universal təfəkkürə malik Əbu Reyhan Biruni və Nəsirəddin Tusini, elmə verdikləri töhfələrlə bu dahi şəxsiyyətlər zamanın özünü yüz illərlə qabaqlayıblar. Lakin elm elə bir zirvədir ki, sən qalxdıqca o da qalxır. Səhrada ilğım kimi. Ha get ki çatacaqsan. Dünya sirlərlə doludur. Onun hamısını açmağa nə insan zəkasının qüdrəti çatar, nə də ömür yetər.

Mənə gəlincə, səmimi deyirəm, məşhur alim kimi tanınmaq nəinki yuxuma girməz, heç xəyalımdan da keçməz. Bu gün axtarışlarımın nəticəsi qəbul edilib qiymətləndirilirsə, bəsimdir.

**- Sizin publisist yazılarınız, elmi axtarışlarınız əsasən S.Vurğun haqqındadır. Necə deyərlər, əliniz qələm tutandan üzü bu yana bundan kənara çıxmamısınız. Ayrı-ayrı illərdə mətbuat səhifələrində ("Sovet Gürcüstanı", "Bakı", "Ədəbiyyat və İncəsənət", "Vışka", "Sovet kəndi", "Qobustan" və s.) S.Vurğunun həyat və yaradıcılığına aid maraqlı məqalələriniz çap olunub. Namizədlik və doktorluq dissertasiyanız da əbədiyaşar şairimiz haqqındadır. Bu nədən irəli gəlir, S.Vurğuna vurğunluqdan, yoxsa...**

- Dünyaya göz açandan evimizdə S.Vurğunun şəklini, kitab rəfində şairin kitablarını görmüşəm.



Anam laylalarında onun şeirlərindən deyərmiş. Atam özü şair təbiətli idi. Düzdü, yazmırdı, amma poeziyanı çox sevirdi. Desəm, bəlkə də inanmazsınız, S.Vurğunu əzbər bilirdi. Hərdən həvəsi gələndə S.Vurğunun qəzəllərindən pəsdən oxuyardı. Mən belə mühitdə böyümüşəm. Şairə vurğunluğum ailəmizdən gəlib. Qohumluğumuza gəlincə, nəyə işarə etdiyinizi başa düşürəm. S.Vurğun təkcə bizim ailənin yox, bütünlükdə Azərbaycanın, xalqımızın sevimlisi, əzizi idi. İstər o vaxtlar, istər indi, istərsə də gələcəkdə bu ad hamı üçün doğma olub və olacaqdır. Xalqa bağlı sənətkarı xalq həmişə uca tutub və tutacaqdır.

S.Vurğuna dönə-dönə müraciət etməyimə gəlincə deməliyəm ki, onun qələmindən süzülən nə varsa, o qədər milli, ümumbəşəridir ki, təkcə indi yox, gələcəkdə də çoxlarının tədqiqat obyekti olacaqdır. Onun zəngin poetik, fəlsəfi, dünyəvi düşüncələri buna zəmin yaradır. Hər dəfə S.Vurğun dünyasına müraciət edəndə üzərimdə böyük ağırlıq, məsuliyyət hiss etmişəm.

İstəmirdim kimsə arxamca tənə oxun atıb "deyilənləri təkrar eləyir" desin. Odur ki, gecə-gündüz rahatlıq, yorğunluq bilmədən axtarışlar aparır, böyük əziyyət, zəhmət bahasına nəyisə əldə etməyə, üzə çıxarmağa çalışırdım. Apardığım tədqiqatlar zamanı əldə etdiyim ən kiçik, lakin dəyərli olan nə varsa, uşaq kimi məni sevindirir, daha da həvəsləndirirdi. Obrazlı şəkildə desək, ümmandan kənar "düşmüş inciləri" ümmanın özünə qaytarmaq üçün hər əziyyətə qatlaşırdım...

**- Siz bir müddət müəllim işləmisiniz. 1979-cu ildən 2007-ci ilin oktyabr ayına kimi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyində (indi Mədəniyyət və Turizm Nazirliyi) məsul vəzifələrdə çalışmısınız. Hazırda həmin nazirliyin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzində direktor müavinisiniz. Məktəbdən ayrılıb mədəniyyət sahəsinə yol tutmağınıza səbəb nə oldu? Ola bilərdi ki, pedaqoji fəaliyyətiniz sizə daha böyük uğurlar qazandırardı?**

- Dediyiniz kimi əmək fəaliyyətinə orta məktəbdən başlamışam. 8 ilə yaxın Sadaxlı 2 saylı kənd orta məktəbində direktor müavini işləməklə yanaşı, həm də Azərbaycan dili və ədəbiyyatından dərs demişəm. Bu sənəti həmişə uca tutmuşam. Bütün müəllimlərə dərin hörmətim vardır. Məsələ onda idi ki, müəllimlikdə özümü tapmırdım. S.Vurğun poeziyasına vurğunluğum, şairin yaradıcılığı ilə əlaqədar elmi tədqiqat işləri aparmaq həvəsim məni sakit buraxmırdı. Ona görə də Bakıya gəldim. 1979-1980-ci illərdə S.Vurğunun ev-muzeyində əvvəl elmi işçi, sonra şöbə müdiri vəzifəsində işlədim. Bu mənim gələcək elmi fəaliyyətimin başlanğıcı, istiqamətvericisi oldu. Allahın qisməti imiş. Artıq yolumu müəyyən etmişdim. Bir qədər keçmiş Mədəniyyət Nazirliyinə dəvət olundum. Sonrası da əvvəldə qeyd etdiyiniz kimi.

**- Siz yeddi kitab müəllifisiniz. Bunlardan üçü- "Heydər Əliyev və muzeylərimiz", "Bakı muzeyləri" (başqa müəlliflə birlikdə), "Tariximiz, yaddaşımız, sərvətimiz" muzey işi ilə əlaqədardır. Necə olur, ədəbiyyatşünas alim həm də başqa sahə ilə bağlı tədqiqat işləri aparır. Bunu necə çatdırırsınız?**

- Düzü, bu sualı gözləyirdim. Ədəbiyyat ixtisasımdır. Lakin xalqımızın tarixi keçmişi, bu günü ilə bağlı nə varsa onları öyrənmək, təbliğ etmək hər birimizin borcudur. Muzeyə gedəndə orada nümayiş etdirilən ən kiçik əşyalara belə diqqətlə baxın. Görərsiniz ki, onların hər biri müəyyən dövrün əks-sədası, nadir şahidləridir. Bəzən adama elə gəlir ki, onlar bizimlə söhbətləşmək, keçmişdə nələr baş verdiyi barədə danışmaq istəyirlər. Nazirlikdə işlədiyim vaxtlar xidməti vəzifəmlə əlaqədar tez-tez şəhər və rayonlara gedir, orada fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərində olurdum. Hər dəfə də sanki sirli-sehrli aləmə düşürdüm.

Təkcə vəzifə borcu kimi yox, həm də tarixi keçmişimizə sevgi kimi bu sahədə tədqiqat işi aparmağı qərara aldım. Açığı, əvvəllər çətin idi. Sonralar alışdım. Bir də S.Vurğunun ev-muzeyində müəyyən təcrübə əldə etmişdim. Tədqiqat işlərimdə arxiv və muzey materiallarından lazımınca istifadə edirdim. Digər tərəfdən şəxsi müşahidələrim müəyyən mənada köməyimə çatırdı.

Gördüyüm işin faydalı olacağına inanırdım. Adını çəkdiyiniz həmin kitablar ali məktəblərin müvafiq fakültələrinin tələbələri, muzey işçiləri, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. O ki qaldı bunları necə çatdırmağıma. Adam qarşısına müəyyən məqsəd qoyarsa və buna nail olmaq üçün yorulmadan, həvəslə çalışarsa, şübhəsiz, onda hər şey alınar. Bir də ki ədəbiyyat və mədəniyyəti bir-birindən necə ayırmaq olar.

Hər ikisi ta qədimdən bu günümüzə qədər xalqımızın həyatında önəmli yer tutub. Bu, sabah da belə olacaq, o biri gün də. Bizim vəzifəmiz bunları öyrənmək, qoruyub saxlamaq, gələcək nəsillərə

çatdırmaqdır. Şükürlər olsun ki, Azərbaycan müstəqil dövlət kimi bu gün dünyada tanınır. Dünya xalqları indi bizim mədəniyyətimizlə daha yaxından maraqlanır. Zəngin mədəni irsimizlə tanış olan hər kəs heyrətlərini gizlədə bilmir. Belə olan halda hər kəs mədəniyyətimizin qorunması, təbliği naminə əlindən gələni gərək əsirgəməsin. Mən də az-çox bacardığımı etmişəm. Və bundan sonra da çalışacağam.

**- Həm tələbəlik illərində, həm də sonralar mətbuat səhifələrində "Bayram hədiyyəsi", "Vəzifə", "Sevinc yaşları", "Müxbir", "Qonaqlığımız baş tutmadı", "Bostançıoğlu Məhəmməd" və s. kiçik hekayə və şeirləriniz, bədii tərcümələriniz çap olunmuşdur. Siz "Ana Kürüm", eyni zamanda Səməd Vurğunun "Muğan" poemasının motivləri əsasında "Ceyran" adlı ssenarilərin, şairin eyniadlı əsərləri əsasında səhnələşdirilmiş "Aslan qayası", "Hürmüz və Əhrimən" radiopyeslərin müəllifisiniz. Nə əcəb ədəbi fəaliyyətinizi davam etdirmədiniz?**

- Açığı, yazmaq istəyirdim. İlk hekayəm rayon qəzetində çıxanda sevincimdən yerə-göyə sığmırdım. Dostlarımın dediyinə görə, yaxşı qələmim vardı. Tələbəlik ilinin ilk günlərindən biri idi. Universitetdə "Poeziya gecəsi" keçirilirdi. Mən də getdim. Tədbirdə tələbələrdən savayı, müəllimlər də iştirak edirdilər. Bir azdan sevimli şairimiz Bəxtiyar Vahabzadə göründü.

Zaldakılar onu alqışlarla qarşıladı. Bəxtiyar müəllim "Poeziya gecəsi"nə gələnləri salamlayıb, minnətdarlığını bildirdi. Gecədə şairin poeziya haqqında fikirləri, gənc yazarlara məsləhət və tövsiyələri, oxuduğu şeirlər sanki hamını sehrləmişdi. Axırda "meydan" tələbə şairlərə verildi.

İndi hamının yaxşı tanıdığı, xalqımızın sevimlisi olmuş Sabir Rüstəmxanlı, Seyran Səxavət, Ramiz Rövşən də onların arasında idi. Vallah, onlara qulaq asdıqca adam özünü başqa aləmdə hiss edirdi. Bu vaxt elə bil daxilimdən bir səs pıçıldayırdı:- Bax, şeir belə olar, şeiri belə yazarlar. Odu-budu qələmi qoydum yerə. Olur də, hərdən ürəyimi boşaltmaq üçün yazıram. Ancaq özümçün...

**- Bir dəfə özünüzdən eşitmişdim: "Əlimi çörəyə çatdıran..." Bu ifadəni yəqin ki, elə-belə işlətmədiniz.**

- Adama ruzi verən, onun qismətinə düşən payı yetirən ilk öncə Allahdır. Çoxları elə hesab edir ki, nail olduğu nə varsa, onun öz işidir. Doğrudur, zəhmətsiz heç nəyə nail olmaq mümkün deyil. Amma Böyük Yaradan istəməsə, heç nə əldə etmək olmaz. Onun iradəsindən kənar heç nə ola bilməz. İkincisi, məni ərsəyə çatdıran ata-anama borcluyam. Şirin tikələrini mənə yedirdən, yaxşı-yaman günlərimdə həyanım olan bu insanların üstümdə böyük haqq-sayı var. Üçüncüsü, xeyirxahlarıma minnətdaram. Deyirəm, nə yaxşı ki, dünyada yaxşılar var. O yaxşılar ki, səni bədxahlardan qoruyur, çətin günlərində arxa-dayağın olur, lazım gəldikdə aqilanə doğru yol göstərirlər. Bələləri həyatımda az olmayıb. Ancaq burada kiminsə adını çəkib, digərinin üzərinə kölgə salmaq istəməzdim. Onların hamısına minnətdaram.

**- Söhbətimizin əvvəlində dediniz ki, burulğandan qorxmursunuz. Axı, burulğandan da qorxulu olanı var?! Nədən qorxursunuz?**

- Mən uşaq vaxtı çox qorxardım. Hər şeydən-kəndin arası ilə gəzən divanədən də, pay yığmağa gələn dilənçidən də, məhəlləmizdən keçəndə maşının sürətini artıran uzunburun şoferdən də.

... O vaxtdan illər keçib. İndi hərdən yenə qorxuram. Çox şeydən-söz yarasından, məhəbbətə ləkə yaxılmasından, laqeydlikdən, qeyrətsizlikdən, qəzetlərdəki söyüşlərdən, yalançılıqdan... qorxuram...

**Sonda dəyərli oxucularımıza həmsöhbətimiz haqqında qısa məlumat vermək istərdik:**

*Adilxan Hüseynəli oğlu Bayramov 1949-cu il fevralın 19-da Gürcüstan Respublikasında - Marneuli rayonunun Sadaxlı kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Sadaxlı 2 saylı kənd orta məktəbində direktor müavini və müəllim işləyib.*

*1979-cu ildən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi sistemində çalışır. 1990-cı ildə "Səməd Vurğun yaradıcılığında xalqlar dostluğu" mövzusunda namizədlik, 2007-ci ildə "Səməd Vurğun yaradıcılığında insan: millilik və ümumbəşərilik" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.*

*Azərbaycan Aşıqlar Birliyi İdarə Heyətinin, Beynəlxalq Muzeylər Şurası Azərbaycan Milli Komitəsi Rəyasət Heyətinin, Azərbaycan Jurnalistlər Birliyinin, "Müasir mədəniyyətşünaslıq" jurnalı redaksiya şurasının üzvü və baş redaktorun müavinidir.*

**Məmməd MƏMMƏDOV**